Tövsiyə Qərarı

COM/ENR/REC/002/FINAL
*Qeyri-rəsmi tərcümə*

**Beşinci iclas**
**Bişkek, 30 may, 2019-cu il**

# "TƏBİİ SƏRVƏTLƏRİN EKOLOJİ CƏHƏTDƏN SƏMƏRƏLİ İSTİFADƏSİ: HÜQUQİ DƏSTƏK"

**Parlament Assambleyası:**

Təbii ehtiyatların davamlı olmayan istifadəsinin insan sağlamlığına və insanların həyat keyfiyyətinə ciddi təsir etdiyini ***nəzərə alaraq;***

Torpaqların və su obyektlərinin yüksək səviyyədə asidifikasiyaya uğraması, artan bioloji müxtəliflik itkisi, daha çox torpaq eroziyası və artan miqdarda tullantı və çirklənmələr üzərində narahatlığı ***diqqətə alaraq;***

TÜRKPA üzvü olan ölkələrin qatıldığı və qəbul etdiyi təbii sərvətlərin ekoloji cəhətdən səmərəli istifadəsi ilə bağlı beynəlxalq konvensiyalar və qanunları ***xatırladaraq;***

TÜRKPA tərəfindən 23-24 yanvar 2019-cu il tarixlərində Türkiyə Böyük Millət Məclisinin (TBMM) dəstəyi ilə Ankarada təşkil edilən "Meşələrin Təbii Sərvətlərinin Qorunması və Təbii Sərvətlərin Ekoloji Cəhətdən Səmərəli İstifadəsi üzrə Seminar"-ın əhəmiyyətini ***vurğulayaraq***;

Təbii sərvətlərin ekoloji cəhətdən səmərəli istifadəsi üzrə TÜRKPA üzv ölkələrində keçirilən seminar, forum və digər tədbirləri ***dəstəkləyərək;***



Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

BMT-nin Davamlı İnkişaf Məqsədlərinin 15-ci maddəsində göstərilən meşələrin davamlı idarə olunması, çölləşmə ilə mübarizə, torpaqların deqradasiyası və bioloji müxtəliflik itkisinin dayandırılması məqsədlərinə nail olmaq üçün birgə fəaliyyətin həyata keçirilməsinə ehtiyac duyulduğunu ***başa düşərək;***

Parlamentlərin davamlı şəkildə idarə olunan təbii ehtiyatların təmin edilməsində əsas rol oynaya biləcəyini və həmçinin ortaya çıxan ekoloji problemlərə tez və effektiv cavab vermələri üçün hökumətlərə təzyiq göstərə və bu proseslərdə nəzarətçi kimi fəaliyyət göstərə biləcəklərini ***nəzərə alaraq,***

**Aşağıdakı məsələlərdə razılığa gəldilər*:***

a) Təbii ehtiyatların səmərəli istifadəsi onların qənaətlə istifadəsinə, geniş miqyaslı istifadənin tədricən tərgidilməsinə, bərpa olunmayan ehtiyatların qənaətlə istifadəsinə keçid və bərpa olunan resursların davamlı istifadəsinə, eyni zamanda günəş, külək və s. kimi alternativ enerji mənbələrinin inkişafına ***yönəltmək****;*

*b)* əhalinin ictimai fəaliyyətini artırmaq, ictimai ekoloji dünyagörüşü və ölkənin inkişafı üçün vacib və strateji məqsədlər olan təbii ehtiyat potensialının qorunması üçün məsuliyyət ***formalaşdırmaq;***

*c)* inkişafın əsas vəzifəsi olaraq, daha az tullantı və resursa qənaət edən texnologiyaların tətbiqi əsasında tullantıların miqdarını ***minimuma endirmək****;*

*d)* davamlı potensialın inkişafı üçün regional mərkəzlər kimi xidmət göstərmələri məqsədilə bəzi mövcud milli institutları ***gücləndirmək****;*

*e)* üzv ölkələrin bu mövzuda səmərəli regional və ikitərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş ***səylər göstərmək***;

f) TÜRKPA üzv ölkələri arasında müvafiq sahələrdə əməkdaşlığın prioritetlərini ***müəyyən etmək***;

g) müvafiq sahələrdəki qanunları yaxınlaşdırmaq məqsədi ilə üzv ölkələrdəki təbii ehtiyatların səmərəli istifadəsi ilə bağlı qanunvericiliyi araşdırmaq, müvafiq sənədləri toplamaq və onları ***analiz etmək***.